Qədim, doğma Qobustanım

# QOBUSTAN

Qobustan Rayon İcra Hakimiyyətinin orqanı

Qəzet 1992-ci ildən çıxır * İCTİMAİ-SİYASİ QƏZET * №02 (194) * Fevral 2020-ci il

# Qobustan rayonu İcra hakimiyyətinin başçısı Adil Məmmədovun 2019-cu ilin yekunlarına dair HESABATI



2019-cu il ölkəmizdə iqtisadi islahatlar, sosial rifah halının yüksəlməsi, ölkəmizin beynəlxaq aləmdə nüfuzunun artması ili kimi yadda qalmışdır. 13 yanvar 2020-cİ il tarixdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə, 03 fevral 2020-ci il tarixdə isə "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda cənab Prezident bu məsələlərə toxunmuş, ölkəmizin qazandığı nailiyyətlər qeyd olunmuş, qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir.

Ötən ildə də Dünyada yeni münaqişə ocaqları, yeni gərginlik yerləri yaranması fonunda Azərbaycan inkişaf, sabitlik yolu ilə getmişdir. Ölkəmiz iqtisadi inkişaf, ciddi islahatlar yolundadır. Bu islahatlar insanların həyat səviyyəsini yaxşılaşdırır, ölkəmizin iqtisadiyyatını sürətləndirir, ölkəmizdə mövcud olan xoşagəlməz problemlərin həllində isə çox önəmli rol oynayır.

Ötən il Azərbaycanda ümumi daxili məhsul 2,2 faiz, qeyri-neft sektoru 3,5 faiz, sənaye istehsalı 1,5 faiz artıb. Keçən il istismara verilmiş nəhəng sənaye müəssisələrinin fəaliyyətə başlaması, eyni zamanda, kiçik və orta sahibkarlığın inkişafı, biznes mühitinin yaxşılaşdırılmasında xüsusi rol oynayıb.

Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan keçən il 20 ən islahatçı ölkə sırasına daxil edilibdir. Vergi və gömrük inzibatçılığı, biznes dairələrinə göstərilən dövlət dəstəyi, əlbəttə ki, qeyri-neft sənayesinin inkişafına müsbət təsir etmişdir. 14 faizdən çox artan qeyri-neft sənayemiz yeni iş yerlərinin yaradılması deməkdir.

Ötən il ölkəmizdə 98 min yeni iş yeri yaradılmışdır. Cənab Prezident öz çıxışında bildirmişdir ki, bu, daimi proses olmalıdır. Çünki Azərbaycanda əhali yüksək templərlə artır və iqtisadiyyat, iqtisadi inkişaf, o cümlədən iş yerlərinin yaradılması demoqrafik inkişafı daim üstələməlidir.

Keçən il ölkəmizə 13,5 milyard dollar sərmayə qoyulubdur. Azərbaycan həm xarici, həm daxili investorlar üçün çox cəlbedici məkandır. Bu sərmayələrin bir hissəsi dövlət investisiyalarıdır.

Ölkəmizdə makroiqtisadi vəziyyət tam sabitdir. İnflyasiya cəmi 2,5 faiz təşkil etmişdir, əhalinin gəlirləri isə 7,4 faiz. Valyuta ehtiyatlarımız 6,4 milyard dollar artmışdır. Bu, son illər ərzində rekord göstəricidir. Valyuta ehtiyatlarımız artıq 52 milyard dollara çatmışdır. Bu, bizim strateji ehtiyatımızdır. Bu, bizim iqtisadi müstəqilliyimizi və böyük dərəcədə siyasi müstəqilliyimizi təmin edir.

Ötən il sosial sahədə çox böyük təşəbbüslər irəli sürülmüşdür. 2019-cu ilin əvvəlindən bu proqramların icrası başlanmışdır. Şəhid ailələrinə böyük məbləğdə vəsait təmin edilmişdir. Ümumilikdə 4,2 milyon insanın sosial və maddi vəziyyəti yaxşılaşdırılmışdır. Minimum əməkhaqqı təxminən 2 dəfə, minimum pensiya 70 faizdən çox artmışdır. Hazırda minimum pensiyanın alıcılıq qabiliyyətinə görə Azərbaycan MDB məkanında birinci yerdədir. Bəzi müavinətlər 50 faiz, bəzi müavinətlər 2 dəfə artırılıb, tələbələrin təqaüdləri artırılıb, şəhid ailələrinə birdəfəlik maddi yardım göstərilib, bundan əlavə, şəhid ailələrinin və məcburi köçkünlərin aylıq müavinətləri artırılıb.

Keçən il sosial infrastrukturun yaradılması ilə bağlı önəmli addımlar atılmış, - 84 məktəb, 60 tibb müəssisəsi tikilmiş və ya təmir edilmişdir.

Ötən il elektrik enerjisinin istehsalı sahəsində mühüm işlər görülmüşdür. il ərzində əlavə 800 meqavat elektrik enerjisi istehsal olunmuşdur.

Qazlaşdırmanın səviyyəsi ölkəmizdə 96 faizə çatıb. Bu da dünya miqyasında ən yüksək göstəricilərdən biridir.

1300 kilometr avtomobil yolu salınıb. Avtomobil yollarının keyfiyyətinə görə bu gün Azərbaycan dünyada 27-ci yerdədir, bir çox inkişaf etmiş ölkələri qabaqlayır.

Meliorativ tədbirlər infrastruktur layihələri arasında önəmli yer tutur. Ötən il ölkəmizdə 80 min hektar torpağa suyun verilməsi təmin edilmişdir, 300-dən çox subartezian quyusu qazılmışdır. Bu proses bu il də davam etdiriləcəkdir.

Yuxarıda qeyd olunan infrastruktur layihələri dövlət investisiya proqramı hesabına icra edilmişdir. Bu, bir daha onu göstərir ki, ölkəmizin dayanıqlı inkişafı üçün gözəl zəmin yaradılır. Bu işlər və eyni zamanda, aparılan islahatlar kənd təsərrüfatının inkişafına da güclü təkan vermişdir. Kənd təsərrüfatında artım tempi 7 faizdən çox olmuşdur, xüsusilə bitkiçilikdə artım 10 faizdən çoxdur. Bizim kənd təsərrüfatı məhsullarının ixracı artır. Daxili tələbat yerli məhsullar hesabına təmin edilir.

Ötən il Cənub Qaz Dəhlizinin əsas hissəsi olan TANAP dəmək olar ki, tam istifadəyə verilmişdir. Keçən ilin noyabr ayında Türkiyə-Yunanıstan sərhədindəki mərasimdə bu layihənin tam istismara verilməsini qeyd edilmişdir. Bu, tarixi layihədir. Bu layihə artıq Cənub Qaz Dəhlizinin dördüncü seqmenti olan TAP layihəsinin uğurlu inkişafını və başa çatmasını şərtləndirir.

Cənab Prezident layihə ilə əlaqədar bildirmişdir ki, "Əminəm ki, bu il bu nəhəng infrastruktur layihəsi - uzunluğu 3500 kilometr olan, bir neçə ölkəni birləşdirən Cənub Qaz Dəhlizi tam istismara veriləcəkdir. Bu, bizim növbəti böyük tarixi qələbəmiz olacaqdır".

Ümumilikdə götürdükdə Dövlət Proqramlarının icrası nəticəsində 2003-cü ildən bu günə qədər bütövlükdə Azərbaycan iqtisadiyyatı 3,4 dəfə artmışdır. Bu, dünyada rekord göstəricidir. 16 il ərzində sənaye istehsalı 2,7 dəfə, kənd təsərrüfatı 2 dəfə, xarici ticarət dövriyyəsi 6,4 dəfə, ixrac 7,6 dəfə, o cümlədən qeyri-neft ixracı 5,2 dəfə artmışdır. Bizim valyuta ehtiyatlarımız 27 dəfə artmışdır. Yoxsulluq təxminən 50 faizdən 4,8 faizə düşmüşdür. Bu da onu göstərir ki, neftdən əldə edilmiş gəlirlər düşünülmüş şəkildə və ədalətli bölünmüşdür.

Son 16 ildə orta əməkhaqqı 11 dəfə, orta pensiya 8 dəfə artmışdır, 300 mindən çox məcburi köçkünə, 6700 şəhid ailəsinə evlər, mənzillər verilmişdir. Bu böyük işlərin görülməsi şərtləndirən əsas amil Cənab Prezident tərəfindən göstərilən siyasi iradə, düşünülmüş siyasət, eyni zamanda, bu siyasət nəticəsində ölkəmizin qazandığı imkanlardır.

2003-cü ildə Azərbaycanda qazlaşdırmanın səviyyəsi 51 olduğu halda , hazırda bu rəqəm 96 faiz təşkil edir.

Ötən dövrdə 16 min 700 kilometr avtomobil yolu tikilmişdir. Bizi bütün qonşu ölkələrlə müasir avtomobil magistralları birləşdirir.

Azərbaycan bu illər ərzində kosmik dövlətə çevrilib. Bizim üç peykimiz var, hətta iki ildən sonra dünyanın aparıcı tədbiri - Dünya Astronavtika Konqresi də Bakıda keçiriləcəkdir. Cənab Prezidentin qeyd etdiyi kimi birinci dəfə Sovet İttifaqında da yeganə konqres 1973-cü ildə Bakıda keçirilmişdir. İndi 49 ildən sonra bu tədbir yenə də Bakıda, amma müstəqil Azərbaycan dövlətinin paytaxtı olan Bakıda keçiriləcək.



2003-cü ildən ötən dövr ərzində ölkəmizdə 7i aeroport tikilmişdir ki, onların altısı beynəlxalq aeroportdur. Davosun hesabatında Azərbaycan hava xidmətlərinə görə 11-ci yerdədir. Heydər Əliyev Beynəlxalq Aeroportu artıq beşulduzlu aeroport kimi tanınır. Dünyada belə aeroportların sayı təqribən 10-na yaxındır. Onlardan biri də Heydər Əliyev Aeroportudur.

Cənab Prezident müzakirələr zamanı qeyd etmişdir ki, "Ermənistanın baş naziri öz ölkəsinin dırnaqarası uğurları haqqında danışarkən Ermənistanı Azərbaycanla müqayisə edir. Onun gəldiyi qənaətə görə, Ermənistan Azərbaycanı bir çox parametrlər üzrə qabaqlayır. Bəri başdan bildirirəm və bunu heç sübut etməyə ehtiyac yoxdur ki, belə bir fərziyyənin heç bir əsası yoxdur. Azərbaycan Ermənistanı bütün əsas parametrlər üzrə böyük fərqlə qabaqlayır. Bunu təsdiqləmək üçün, sadəcə olaraq, bir neçə hadisəni və bir neçə rəqəmi səsləndirmək istərdim".

Azərbaycan 2011-ci ildə 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilmişdir. BMT Təhlükəsizlik Şurasına seçilməyimiz bizim böyük siyasi və diplomatik qələbəmizdir və eyni zamanda, Ermənistan üzərində böyük qələbədir.

2016-cı ildə Ermənistan dinc Azərbaycan əhalisinə qarşı hərbi təxribat törədib və bu təxribat nəticəsində bir neçə dinc vətəndaş həlak olub. Onların arasında uşaqlar da olub. Azərbaycan buna cavab olaraq uğurlu əks-hücum əməliyyatı keçirərək Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini, minlərlə hektar torpağı işğalçılardan azad etdi və o torpaqlarda Azərbaycan bayrağı ucaldıldı. Bu, bizim hərbi qələbəmiz idi.

Növbəti hərbi qələbə 2018-ci ildə təmin edilmişdir. Uğurlu Naxçıvan əməliyyatı nəticəsində 10 mindən çox hektar ərazi işğalçılardan, erməni silahlı qüvvələrindən təmizləndi və bir neçə önəmli strateji yüksəklik azad edildi. Bu yüksəkliklər imkan verir ki, biz Ermənistanın strateji kommunikasiyalarına tam nəzarət edə bilək. Bu, bizim ikinci hərbi qələbəmiz idi.

Dünyanın ən güclü orduları reytinqində Azərbaycan 52-ci, Ermənistan isə 96-cı yerdədir. O cümlədən hava gücü üzrə Azərbaycan 63-cü, Ermənistan 86-cı yerdədir. Dəniz gücü üzrə Azərbaycan 67-ci yerdədir, Ermənistanda dəniz yoxdur. Tank gücü üzrə Azərbaycan 32-ci, Ermənistan 78-ci yerdədir. Mənbə "Global Firepower 2019" hesabatıdır.

2019-cu ildə Azərbaycanın ümumi daxili məhsulu dollar ekvivalentində 47,6 milyard dollardır, Ermənistanda isə cəmi 13 milyard dollar. Alıcılıq qabiliyyətinə görə Azərbaycan 187 milyard dollar daxili məhsula sahibdir, Ermənistan 33 milyard, fərq 5,6 dəfədir. Adambaşına düşən ümumi daxili məhsul Azərbaycanda 4800 dollar, Ermənistanda 4500 dollardır.

*(Davamı səh.2-də)*

*(Əvvəli səh.1-də)*

Alıcılıq qabiliyyətinə görə adambaşına düşən ümumi daxili məhsul Azərbaycanda 18 min 600 dollar, Ermənistanda 11 min dollardır. Valyuta ehtiyatları Azərbaycanda 51 milyard dollar, Ermənistanda 2 milyard dollardır, fərq 25 dəfədir. Xarici ticarət dövriyyəsi Azərbaycanda 33,6 milyard, Ermənistanda 7,4 milyard dollardır, fərq 4,5 dəfədir. İxrac - Azərbaycan 19,6 milyard, Ermənistan 2,4 milyard, fərq 8,1 dəfədir. Müsbət saldo Azərbaycanda 6 milyard dollar, Ermənistanda mənfi saldo 2,6 milyard dollardır. Sərmayə qoyuluşu - keçən il Azərbaycana 13,5 milyard dollar qoyulubdur, Ermənistana 900 milyon, fərq 15 dəfədir. Xarici dövlət borcu - Azərbaycanın xarici dövlət borcu 7,9 milyard dollar, Ermənistanın 6 milyard dollardır. Azərbaycanda xarici dövlət borcu ümumi daxili məhsulun 17 faizini təşkil edir, Ermənistanda 40 faizdən çoxdur. Valyuta ehtiyatları Azərbaycanda xarici dövlət borcundan 6,4 dəfə çoxdur, Ermənistanda xarici dövlət borcu valyuta ehtiyatlarından 2,3 dəfə çoxdur. Adambaşına düşən xarici borc Azərbaycanda 799 dollar, Ermənistanda 1900 dollardır.

2019-cu ilin dekabr ayında Azərbaycanda orta əməkhaqqı 723 manat - bu, 425 dollar təşkil edir, Ermənistanda 369 dollar. Alıcılıq qabiliyyətinə görə orta əməkhaqqı üzrə Azərbaycan MDB-də ikinci, Ermənistan doqquzuncu yerdədir. Minimum pensiya Azərbaycanda 200 manat, yəni 118 dollar, Ermənistanda 55 dollardır. Minimum pensiyaya görə Azərbaycan MDB-də ikinci, Ermənistan doqquzuncu yerdədir. Minimum pensiyanın alıcılıq qabiliyyətinə görə Azərbaycan MDB-də birinci, Ermənistan onuncu, yəni axırıncı yerdədir. Orta pensiya Azərbaycanda 262 manat, yəni 154 dollar, Ermənistanda 84 dollardır. MDB-də orta pensiyaya görə Azərbaycan dördüncü, Ermənistan səkkizinci yerdədir. Orta pensiyanın alıcılıq qabiliyyətinə görə Azərbaycan MDB-də ikinci, Ermənistan axırıncı - onuncu yerdədir. Yoxsulluq səviyyəsi Azərbaycanda 4,8 faiz, Ermənistanda 24 faizdir, fərq beş dəfədir. Şəhid ailələrinə və müharibə əlillərinə 2019-cu ildə Azərbaycanda 934 mənzil verilibdir, Ermənistanda sıfır. Bütövlükdə Azərbaycanda bu kateqoriyadan olan insanlara 7590 mənzil verilib, Ermənistanda, bildiyimə görə, belə proqram mövcud deyil. Təkcə keçən il bu kateqoriyadan olan insanlara 600 avtomobil verilib, Ermənistanda sıfır. Bütövlükdə bu kateqoriyadan olan insanlara 6750 avtomobil verilib, Ermənistanda sıfır.

Davos Ümumdünya İqtisadi Forumunun qlobal rəqabətlilik hesabatı üzrə. İqtidarın uzunmüddətli strategiyasına görə Azərbaycan dünyada onuncu, Ermənistan 59-cu yerdədir. İqtidarın siyasi sabitliyi təmin etməsi - Azərbaycan 11-ci, Ermənistan 58-ci yerdədir. Məhkəmə azadlığı - Azərbaycan 39-cu, Ermənistan 67-ci yerdədir. Polis orqanlarına etimad - Azərbaycan 30-cu, Ermənistan 44-cü yerdədir. Yolların keyfiyyəti - Azərbaycan 27-ci, Ermənistan 91-ci yerdədir. Dəmir yolu xidmətlərinin səmərəliliyi - Azərbaycan dünya miqyasında 11-ci, Ermənistan 67-ci yerdədir. Hava yolları xidmətlərinin səmərəliliyi - Azərbaycan 12-ci, Ermənistan 67-ci yerdədir. İnternet istifadəçilərinin sayına, yəni əhali üzrə payına görə faizlə Azərbaycan 43-cü, Ermənistan 77-ci yerdədir. Əhali arasında rəqəmsal biliklər üzrə Azərbaycan 19-cu, Ermənistan 50-ci yerdədir. Ümumi daxili məhsul, alıcılıq qabiliyyəti pariteti üzrə Azərbaycan 69-cu, Ermənistan 120-ci yerdədir.

Azərbaycan 2019-cu ildə dünya və Avropa çempionatlarında 775 medal qazanıb, onlardan 271-i qızıl medaldır. Ermənistan cəmi 222 medal qazanıb, onlardan 61-i qızıldır. 2019-cu ildə II Avropa Oyunlarında Azərbaycan 28 medal qazanıb, Ermənistan 11 medal. 2019-cu ildə keçirilmiş güləş üzrə Avropa çempionatında Azərbaycan 13 medal qazanıb, o cümlədən 4 qızıl, Ermənistan 3 medal qazanıb, bir qızıl.

İntellektual idman növü olan şahmatda əldə edilən nəticələrə. 2019-cu ildə Avropa çempionatında səkkiz yaşlı şahmatçılar arasında Dinarə Hüseynova qızıl medal qazanaraq Avropa çempionu olmuşdur, Səadət Bəşirli və Yusif Kərimli bürünc medal qazanmışlar. On dörd yaşlı şahmatçılar arasında Ayan Allahverdiyeva Avropa çempionu olmuşdur. Qadınlardan ibarət milli komandamız Avropa çempionatında Ermənistana qalib gələrək bürünc medal qazanmışdır. Gənclərin dünya çempionatında on dörd yaşlılar arasında Aydın Süleymanlı dünya çempionu olmuşdur. Teymur Rəcəbov isə dünya kubokunun sahibi olmuşdur. 2016-cı il Rio Olimpiya Oyunlarında Azərbaycan 18 medal qazanıb, Ermənistan cəmi 4 medal. Medalların sayına görə Azərbaycan 14-cü yeri tutubdur.

Digər önəmli bir məsələ ondan ibarətdir ki, Azərbaycan faşizmin qəhrəmanlaşdırılmasına qarşı ardıcıl mübarizə aparır, Ermənistan isə faşistləri qəhrəmanlaşdırır. Faşist cəlladı olan Njdeyə İrəvanın mərkəzində 6 metrlik abidə ucaldılıb. Bu qanlı cinayətkar SMERŞ tərəfindən həbs edilib, 25 il məhkum edilib, həbsxanada ölüb və reabilitasiya olunmayıb. Belə bir adamın şərəfinə İrəvanda abidə qoyulur və Ermənistanın baş naziri bu cəlladı Soljenitsın və Molotovla eyniləşdirir. Njdenin məşhur kəlamı var: Almaniya uğrunda ölən Ermənistan uğrunda ölür və o, bunu İkinci Dünya müharibəsi zamanı demişdi. Bu, artıq onun mənfur xislətini əks etdirən ifadədir. Ona görə bu sahədə də Azərbaycan həqiqətin tərəfindədir, Ermənistan isə şər qüvvələrin tərəfindədir.

Nüfuzlu ”News & World Report” mətbu orqanı tərəfindən aparılmış təhlilə əsasən dünyanın ən güclü ölkələrinin siyahısı müəyyən edilmişdir. Siyahıda cəmi 80 ölkənin adı var və Azərbaycan bu siyahıda güclü ölkələr arasında 45-ci yerdədir. Ermənistanın isə ümumiyyətlə, adı belə yoxdur. İqtisadi inkişafın templərinə görə isə bizim yerimiz dünya miqyasında 35-cidir.

Azərbaycan dünya əhəmiyyətli nəhəng layihələr icra edir. Onların arasında Bakı-Novorossiysk, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan neft kəmərləri, Bakı-Tbilisi-Ərzurum, TANAP qaz kəmərləri var. Cənub Qaz Dəhlizi bu il istismara veriləcək. Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib və bu yol vasitəsilə yükdaşımaların həcmi ildən-ilə artır. Bakı-Tbilisi-Qars Şərq-Qərb nəqliyyat dəhlizinin tərkib hissəsidir. Biz bu layihəni qonşu ölkələrlə - Türkiyə və Gürcüstan ilə uğurla icra etdik. Digər qonşularımızla - Rusiya və İran ilə Şimal-Cənub nəqliyyat dəhlizi üzrə işlər uğurla gedir və demək olar ki, bu dəhliz fəaliyyət göstərir. Sadəcə olaraq, bu dəhlizi daha da səmərəli etmək üçün növbəti addımlar atılır. Bu nəhəng enerji və nəqliyyat layihələri Ermənistandan yan keçib. Bu, bizim qonşularımızdır, eyni zamanda, Rusiya istisna olmaqla, Ermənistanın da qonşularıdır. Yəni, biz qonşularla dostluq, əməkdaşlıq, səmimiyyət əsasında münasibətləri qurmuşuq və məhz buna görə bu layihələrə nail olmuşuq. Ermənistan isə əsrlərboyu qonşulara xor gözlə baxır, qonşulardan nəsə qoparmaq istəyir, onların torpağına iddia edir, tarixi saxtalaşdırır, tarixi abidələri saxtalaşdırır və özününküləşdirməyə cəhd edir. Fərq bundan ibarətdir.

Ermənistan bu gün bizim səylərimiz nəticəsində siyasi, iqtisadi, investisiya, enerji və nəqliyyat dalanıdır. Torpaqlarımızdan çıxmayana qədər bu vəziyyət belə də qalacaq.



2019-cu il Qobustan rayonu üçün də əlamətdar bir il olmuşdur. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-Prezident Mehriban xanım Əliyevanın rayonumuza səfəri xüsusilə yadda qalan, rayonumuza uğur gətirmiş bir səfər olmuşdur. Səfər zamanı 5 mərtəbəli, 50 yerlik müasir xəstəxana binasının, xalçaçılıq emalatxanasının, regional yun qəbulu və boyaq bitkilərinin tədarükü məntəqəsinin, 5,1 nəfər əhalinin yaşadığı 6 məntəqəni birləşdirən 14,5 km uzunluqda olan Qobustan-Poladlı yolunun açılışı olmuşdur. Bu rayonumuzun tarixində ən böyük layihələrin istifadəyə verildiyi və eyni zamanda, yeni layihələrə başlanmış bir səfər olmuşdur. Belə ki, cənab Prezidentin səfərdən dərhal sonra imzaladığı sərəncamla 2,2 min nəfər əhalinin yaşadığı 2 yaşayış məntəqəsini birləşdirən 13 km-lik Ərəbqədim-Göydərə yolunun, 360 yerlik Sündü kənd tam orta məktəbinin, istismar müddətini başa vurmuş, qəzalı vəziyyətdə olan 6 ədəd 2 mərtəbəli 8 mənzilli yaşayış binasının sakinlərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə 48 mənzilli yaşayış binasının tikintisi üçün ümumilikdə ilkin olaraq 7 milyon manat vəsait ayrılmışdır. Bu il həmin obyektlər istifadəyə veriləcəkdir.

Cənab Prezidentin 2018-ci ildə imzaladığı sərəncam əsasında tikintisinə başlanmış 100 yerlik 2 saylı uşaq bağçası da ötən il istifadəyə verilmişdir. Bununla yanaşı sevindirici haldır ki, daxili imkanlar hesabına inşa edilmiş daha bir 100 yerlik uşaq bağçası da ötən il fəaliyyətə başladı və eyni zamanda Sündü kəndində əlavə bir qrupun açılması təmin olundu. Bununla da bağça yerlərinin sayı 2019-cu ildə ümumilikdə götürdükdə 50 faiz artmışdır.

Ötən il rayonda daxili imkanlar hesabına şahmat məktəbinin binasının tikinti və yenidənqurması tamamlanmış, Təhsil Nazirliyi tərəfindən inventar və avadanlıqlarla təchiz edilmişdir. Şahmat məktəbinin istifadəyə verilməsi üçün tərəfimizdən müvafiq tədbirlər görülür.

Bütün bunlar möhtərəm Prezidentimizin, Birinci vitse-prezident Mehriban xanımın Qobustana və qobustanlılara göstərdiyi yüksək diqqət və qayğının yalnız bir hissəsidir. Məhz buna görə möhtərəm Prezidentimizə və Mehriban xanıma bütün qobustanlılar adından dərin minnətdarlığımızı bildiririk.

Azərbaycan Respublikası Prezidentinin 29 yanvar 2019-cu il tarixli Fərmanı ilə təsdiq edilmiş ”Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” nda Qobustan rayonu üzrə 16 tədbirin həyata keçirilməsi nəzərdə tutulmuşdur.Bu tədbirlərdən artıq 10-u qismən icra edilmişdir və digər tədbirlərin icrası üçün müvafiq tədbirlər görülür. Görülmüş işlər nəticəsində rayonumuzun inkişafı sürətlənmiş, iqtisadi göstəricilər yüksəlmişdir.

2019-cu ildə Qobustan rayonunun yerli gəlirlər üzrə büdcə proqnozu 2807,0 min manat plana qarşı 3935,15 min manat yerinə yetirilmişdir.

Bu isə ümumilikdə 2019-cu ildə proqnozlaşdırılmış rayon büdcəsindən 84,15 min manat və ya 2,2 faiz çoxdur. Artıq 2020-ci ilin dövlət büdcəsi təsdiq edilmişdir. Rayonun ümumi büdcəsi 3978,0 min manat, yerli gəlirlər isə 3464,0 min manat proqnozlaşdırılmışdır. Proqnoza əsasən rayon büdcəsinin 87,1 faizi yerli gəlirlər hesabına formalaşacaqdır. Çalışacağıq ki, bu il də rayon büdcəsinin tam şəkildə yerli gəlirlər hesabına təmin edilməsinə nail olaq. Onu da qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 3 iyun 2019-cu il tarixli 719 nömrəli fərmanı ilə ”Şəhər və rayonlar üzrə vergi orqanlarının xətti ilə dövlət büdcəsinə nəzərdə tutulan daxilolmalardan büdcə ilinin sonuna artıq daxil olan vəsaitin müəyyən hissəsinin həmin şəhər və rayonların sərəncamında saxlanılması və istifadəsi Qaydası” təsdiq edilmişdir. Fərmana müvafiq olaraq Qobustan rayon İcra hakimiyyətinin müvafiq büdcədənkənar fondu yaradılmışdır. Bu çox böyük bir stimullaşdırıcı addımdır. Rayonumuz nə qədər çox yerli gəlir əldə edərsə, bir o qədər abadlıq, aztəminatlı ailələrin sosial müdafiəsi, işçilərin maddi həvəsləndirilməsi imkanları da artacaqdır.

2019-cu il ərzində rayonda 194212,0 min manatlıq məhsul istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bundan 83723,2 min manatı istehsal sahələrinin payına düşür.

Sənaye məhsullarının ümumi həcmi və göstərilmiş xidmətlər 1952,1 min manat və ya ümumi məhsul buraxılışının həcminin 1,0 faizini, kənd təsərrüfatının ümumi həcmi 83339,5 min manat və ya ümumi məhsul buraxılışının 42,9 faizini təşkil etmişdir ki, bunun da 27,9 faizi və ya 23226,6 min manatı bitkiçilik sahəsinin, 72,1 faizi və ya 60112,9 min manatı heyvandarlıq sahəsinin payına düşür.

Tikinti sektorunun ümumi həcmi 11169,2 min manat və ya ümumi məhsul buraxılışının 5,6 faizini, nəqliyyat sektoru üzrə 2007,5 min manat və ya ümumi məhsul buraxılışının 1,1 faizini, poçt və rabitə xidmətləri üzrə 366,6 min manat və ya ümumi məhsul buraxılışının 0,2 faizini və ticarət sahəsi üzrə isə 95377,2 min manat və ya ümumi məhsul buraxılışının 49,2 faizini təşkil etmişdir.

2019-cu ildə ümumi məhsul buraxılışının həcmi artaraq 194 milyon 212 min manat olmuş və ya 2018-ci illə müqayisədə 8,7 faiz artmışdır. Baxılan dövrdə sənaye məhsulunun ümumi həcmi 30,4 faiz, kənd təsərrüfatı məhsulunun həcmi 8,6 faiz, tikinti sektoru üzrə 52,8 faiz, nəqliyyat sektoru üzrə 4,2 faiz, informasiya və rabitə sektoru üzrə 9,1 faiz və ticarət sektoru üzrə 5,0 faiz artım olmuşdur.

Rayonumuzun iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Kənd Təsərrüfatı Nazirliyi ilə əlaqələr yüksək səviyyədə qurulmuşdur. Ötən il Kənd Təsərrüfatı Naziri və digər vəzifəli şəxslərin iştirakı ilə rayonumuzda kənd təsərrüfatının inkişafı ilə əlaqədar bir sıra tədbirlər keçirilmişdir.

2019-cu ildə taxıl sahələrində aqrotexniki tədbirlərə əməl edilmiş, yemləmə gübrələrindən düzgün və vaxtında istifadə olunmuş, zərərvericilərə qarşı ciddi mübarizə tədbirləri görülmüşdür. Eyni zamanda, taxıl sahələrinin yanğından qorunması, biçinin təşkili ilə bağlı Rayon İcra Hakimiyyətində Qərargahlar yaradılmışdır. Görülmüş işlər nəticəsində ötən il rayonda 22 min 258 ha sahədən 56 min 313 ton buğda, 9 min 382 ha sahədən 22 min 235 ton arpa olmaqla, ümumilikdə 78 min 548 ton taxıl istehsal edilmişdir ki, bu da rayon üzrə rekord göstəricidir. Buğda üzrə məhsuldarlıq 25,3 sentner, arpa üzrə məhsuldarlıq isə 23,7 sentner olmuşdur.

Məlumunuz olduğu kimi rayonumuzda 1000 ha sahədə aqropark yaradılır. Aqroparkda hazırda 200 başlıq ətlik istiqamətdə maldarlıq üçün tövlənin tikintisi davam etdirilir. Əraziyə elektrik xətti çəkilərək müvafiq transformator quraşdırlmışdır.

Aqroparka suvarma suyunun çəkilməsi üçün layihə smeta sənədləri hazırlanmış, yaxın vaxtlarda icrasına başlanılacaqdır. 2018-ci ilin payızında aqroparkda 400 ha ərazidə arpa əkilmiş, suvarma olmadığı üçün məhsuldarlıq 25 sentner təşkil etmişdir. Suvarma təşkil olunduqdan sonra burada məhsuldarlığı 45-50 sentnerə çatdırmaq mümkün olacaq və eyni zamanda burada müasir suvarma üsullarından istifadə etməklə meyvəçilik, qarğıdalı, günəbaxan və s. əkinlərdə planlaşdırılır. Bu il isə aqroparkda 450 ha sahədə arpa, 200 ha sahədə buğda əkini aparılmışdır.

Kənd Təsərrüfatı Nazirliyinin xətti ilə hazırda rayonumuzda illik istehsal gücü 3000 ton olan dənli bitki toxumlarının emalı zavodunun tikintisi başa çatdırılmış, son tamamlama işləri aparılır. Bu isə təsərrüfatlarımızın keyfiyyətli toxumla təmin olunmasına zəmin yaradacaqdır. Bundan əlavə Nazirlik tərəfindən Qobustan rayonunda Heyvandarlıq Nümayiş Kompleksinin tikintisi də davam edir və kompleks bu il istifadəyə veriləcəkdir.

Taxıl məhsulları ilə yanaşı ötən il rayonda 51 ha yonca, 347 ha noxud, 69 ha bostan və tərəvəz, 107 ha kartof, 1 ha günəbaxan əkilmişdir.

Rayonun Təsi kəndində 14,44 ha Cəmcəmli kəndində 4 ha sahədə badam, Poladlı kəndində isə 3 ha sahədə nar bağı salınmışdır.

Rayonda kənd təsərrüfatının digər sahəsi, heyvandarlıq da uğurla inkişaf etdirilir. 2018-ci ilə nisbətən ət istehsalı 89,1 ton , süd istehsalı 439,0 ton, yumurta istehsalında 145 min ədəd, yun istehsalında 2,0 ton artım müşahidə olunmuşdur. İstehsal edilmiş kənd təsərrüfatı məhsulları əsasən əhali təsərrüfatlarının payına düşür.

2020-ci ilin məhsulu üçün 32577 hektar sahədə şum çıxarılmış və 31207 hektar sahədə payızlıq əkin işləri aparılmışdır. Bundan 21166 hektarı payızlıq buğda, 10041 hektarı payızlıq arpa bitkiləri təşkil etmişdir. Payızlıq əkinin 67,8 faizi buğda sahəsinin payına düşür.

Artıq yazlıq əkinlərin mövsümünə az qalır. Biz çalışmalıyıq ki, şəxsi təsərrüfatlarda tərəvəz, bostan və digər məhsulların istehsalını artıraq.Bunun üçün real imkanlar vardır.

2019-cu il ərzində rayonda 30 kiçik ticarət müəssisəsi, 734 fiziki şəxs ticarət xidməti göstərmişdir. 2019-cu ildə rayonun istehlak bazarından əhaliyə 82776,0 min manatlıq istehlak malları satılmış və ödənişli xidmətlər göstərilmişdir. Pərakəndə əmtəə dövriyyəsi və ödənişli xidmətlərin həcmi keçən ilə nisbətən 105,0 faiz təşkil etmişdir. 2019-cu ildə əhaliyə pərakəndə ticarət şəbəkələrindən 68982,0 min manatlıq əmtəə satılmışdır ki, bu da 2018-ci ilə nisbətən müqayisəli qiymətlərlə 102,7 faiz təşkil edir.

*(Davamı səh.3-də)*

*(Əvvəli səh.2-də)*

Əhalinin məşğulluğu daim diqqətdə saxlanılır. Rayonda 2019-cu il ərzində yeni açılmış iş yerlərinin sayı 3024 olmuşdur ki, bu iş yerlərindən 442-si daimi iş yerləridir. Yeni yaranmış müəssisə və təşkilatlarda 60 nəfər, mövcud müəssisə və təşkilatlarda 149, fiziki şəxslərdə 233 nəfər və digər tədbirlərdə 2582 nəfər işə qəbul olunmuşdur. Ötən il rayonda 1408 nəfər iş axtaran kimi qeydiyyata durmuş, onlardan 45 nəfəri işsiz statusu almışdır. İşsiz statusu almış vətəndaşların 1 nəfərinə işsizlik müavinəti verilir.

Onu da qeyd edək ki, ötən il istifadəyə verilmiş Xalçaçılıq fabrikində hazırda işləmək üçün 60-dan yuxarı qadına ehtiyac vardır. Bu istiqamətdə aidiyyəti şəxslər səylərini gücləndirməlidirlər.

Rayonumuzda müharibə əlilləri, şəhid ailələri və aztəminatlı ailələr daim diqqətdə saxlanılır. 2019-cu ildə Rayon İcra hakimiyyəti tərəfindən Novruz , Qurban və Ramazan bayramlarında hər dəfə 520 nəfərə bayram sovqatı verilmişdir. Bundan əlavə 1 aztəminatlı ailənin mənzil şəraitinin yaxşılaşdırılması üçün köməklik göstərilmiş, 3 nəfər evi yanmış vətəndaşın mənzil şəraitinin bərpa olunması təşkil edilmiş, 2 xəstə uşağın valideynlərinə övladlarının müalicəsi üçün qismən maddi yardımlar göstərilmişdir.

Onu da qeyd edək ki, cənab Prezidentin tapşırığı əsasında ötən il kommunal sahədə 185 nəfər "DOST İŞ" MMC xətti ilə işə qəbul olunmuşdur. İctimai iş yerlərində şəffaflığın yaradılması, səmərəli istifadə edilməsi məqsədilə İcra hakimiyyəti başçısının sədriyi ilə hüquq mühafizə orqanları rəhbərlərinin də daxil olduğu xüsusi komissiya yaradılmış, mütəmadi nəzarət tədbirləri həyata keçirilir. Bunun nəticəsidir ki, ötən il 43 nəfər işləmədiyi üçün aktlaşdırılaraq işdən kənarlaşdırılmışdır. Bu tədbirlər bundan sonra da, daha ciddi davam etdiriləcəkdir.

2019-cu ildə rayon iqtisadiyyatında muzdla işləyən işçilərin siyahı sayı 3336 nəfər, onların hesablanmış əmək haqqı fondu 15464,1 min manat olmuşdur.

2019-cu ilin əvvəlindən işçilərin orta aylıq nominal əmək haqqı 390,7 manat təşkil etmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 124,2 faiz təşkil edir. Rayon üzrə ən yüksək orta aylıq əmək haqqı təhsil işçilərində və dövlət idarəetməsində, maliyyə, enerji və qaz istismarı işçilərində olmuşdur.

Xüsusi qeyd etmək lazımdır ki, 2019-cu il bütövlükdə minimum əmək haqqının, pensiya və digər müavinətlərin, bütün sahələrdə çalışanların əmək haqlarının əhəmiyyətli dərəcədə yüksəldiyi bir il kimi də yadda qalmışdır.

Yerlərdə keçirilən səyyar qəbullarda, insanlarla görüşlərimizdə hər bir kəs cənab Prezidentə bununla bağlı sonsuz təşəkkürlərini ifadə edirlər.Biz də bütün rayon sakinləri adından möhtərəm Prezidentimizə həm bu yeni açılmış iş yerləri, eyni zamanda əhalinin demək olar ki, bütün təbəqələrinin, xüsusilə aztəminatlı əhalinin sosial rifah halının yüksəlməsi üçün atdığı mühüm addımlara görə öz dərin minnətdarlığımızı bildiririk.

2019-cu ildə əhalinin elektrik enerjisi, təbii qaz, içməli su və rabitə ilə təminatı sahəsində də bir sıra işlər görülmüşdür.

Ötən il rayonun elektrik şəbəkəsində bir sıra cari təmir və saxlama işləri görülmüşdür. Rayon əhalisi fasiləsiz elektrik enerjisi ilə təmin olunur. 2019-cu ildə rayonun bir sıra kəndlərində yararsız daşıyıcı elektrik xətt və dirəkləri dəyişdirilmiş, Qobustan şəhərində "Özünü daşıyan izolyasiyalı naqillərlə" kabelləşmə davam etdirilmişdir. Lakin Şıxzahırlı, Ərəbqədim, Nardaran, Göydərə, Nabur, Bəklə, Sündü kəndlərində kabelləşdirmə işlərinə tezliklə başlanılmalıdır. Ötən il istehlak edilmiş elektrik enerjisinin dəyəri 91,98 faiz ödənilmişdir. Ödənilməyən hissə isə əsasən xətlərin standartlara cavab verməməsi nəticəsində yaranan itkilərdir. Onu da qeyd edək ki, ötən il rayon üzrə ümumi ödəniş 90,14 faiz olmuşdur.

Rayon mərkəzi də daxil olmaqla, 96 faiz əhalinin yaşadığı 23 yaşayış məntəqəsi (yaşayış olan məntəqələrin 79,3%-i) qazlaşdırılmışdır. 2019-cu ildə yeni yaşayış massivinin qazlaşdırılması tam başa çatdırılmışdır. Lakin Təsi, Sədəfli, Cəngi, Qaracüzlü, Nardaran, Ceyrankeçməz kəndlərinin qazlaşdırılması da qarşımızda duran əsas problemlərdəndir.İnanırıq ki, yaxın illərdə bu kəndlərin də qazlaşdırılması başa çatdırılacaqdır. Ötən il rayon üzrə istehlak edilmiş təbii qazın dəyəri 102,8 faiz ödənilmişdir.

Qobustan şəhərində əhali fasiləsiz içməli su ilə təmin edilir. Əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması məqsədilə ötən il Cəmcəmli kəndində 5790 p/m, Ərəbqədim kəndində 7122 p/m və Göydərə kəndində 2850 p/m olan daxili su şəbəkəsi quraşdırılmışdır. Ərəbqədim kəndində 148, Göydərə kəndində 54 və Cəmcəmli kəndində isə 211 ədəd sayğac quraşdırılmış, əhali içməli su ilə təmin edilmişdir. Sündü kəndində şəbəkə qurulması və 202 ədəd sayğac quraşdırılması işləri tamamlanmaq üzrədir.

Onu da qeyd edək ki, Xilmilli kəndinin içməli su təminatında ciddi çətinliklər vardır. Bu il ərizində həmin kəndin içməli su şəbəkəsinin qurulması istiqamətində işlər görülməlidir. 2019-cu ildə rayon üzrə istehlak edilmiş içməli suyun dəyəri, ümumilikdə 125 faiz, əhali üzrə isə 104 faiz ödənilmişdir.

Rayonun Dərəkənd kəndi ərazisində çirkab sularının təmizlənməsi üçün zavodun tikintisi davam etdirilir. Bu çox böyük layihədir. Layihə başa çatdıqdan sonra bu sahədə olan problemlər də aradan qaldırılacaqdır.

Son dövrdə möhtərəm Prezidentimizin Sərəncamlarına əsasən Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən rayonumuzda 6 subartezian quyusu qazılıb istifadəyə verilmiş, 12 fevral 2019-cu il tarixli Sərəncama əsasən isə daha 2 quyunun qazılması başa çatdırılmışdır. Hər bir quyu nəzarətdə saxlanılmalı, içməli və ya suvarma istiqamətində səmərəli istifadə edilməlidir. Ərazi nümayəndələri və bələdiyyələr bu məsələni daim nəzarətdə saxlamalıdırlar.

Rayonumuzun mərkəzində və kəndlərdə 2019-cu il ərzində rabitə xidmətinin artırılması istiqamətində bir sıra işlər görülmüşdür. Rayonun Mərkəzi və Sündü telefon stansiyalarında 128, Xilmilli, Nabur və Bəklə telefon stansiyasında isə 48 yerlik DSLAM avadanlığı quraşdırmaqla, Cəyirli kəndində isə 128 yerlik kart əlavə edilməklə internet tutumu 400 port artırılmışdır. Eləcə də, digər stansiyalarda cari təmir və saxlama işləri görülmüşdür.

Rayonumuzda quruculuq-abadlıq, yaşıllaşdırma işləri uğurla davam edir. Şəhərdaxili yollara 7000 kv.m asfalt vurulmuş, şəhərdə 5 ha ərazidə poliqonun ətrafına hasar çəkilmişdir. Ərəbşalbaş kəndində kənd sakinləri tərəfindən kənddaxili yollara 3 km, Cəyirli kəndində 2,7 km, Təklə Mirzəbaba kəndində 1,1 km -dən artıq asfalt örtüyü vurulmuşdur. Bu il Nabur kəndinə gedən yolun asfaltlanması istiqamətində bir sıra işlərin görülməsini planlaşdırırıq.



Rayonda yaşıllaşdırma işlərinə xüsusi diqqət yetirilir. Azərbaycan şairi İmaməddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar keçirilmiş ağacəkmə kampanıyası çərçivəsində rayonda 5000 ağac əkilmişdir. Ağaclara qulluq edilməsi daim diqqətdə saxlanılır. Bundan əlavə ötən il rayonda 5000-ə yaxın qızılgül kolu və digər sahələrdə 4000-dən artıq ağac əkilmişdir.

Azərbaycan Respublikası Prezidentinin siyasətinin əsasında Azərbaycan vətəndaşının hüquqlarının qorunması, onlara yüksək diqqət və qayğının göstərilməsi durur.Məhz bu tələblərə uyğun olaraq rayonumuzda vətəndaş müraciətlərinə ötən ildə də həssaslıqla yanaşılmışdır.

Vətəndaşların Azərbaycan Respublikası Konstitusiyasında öz əksini tapmış şəxsən müraciət etmək, habelə fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququna daim hörmətlə yanaşılmış, onların hər bir şikayətinə, ərizə və təkliflərinə "Vətəndaşların müraciətlərinə baxılması haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq baxılmışdır.

2019-cu ildə Qobustan rayon İcra hakimiyyətinin başçısı aparatına Azərbaycan Respublikası Prezidenti Adminstrasiyasından 223, Azərbaycan Respublikasının Nazirlər Kabinetindən 17, Azərbaycan Respublikasının Milli Məclisindən 2, digər mərkəzi İcra hakimiyyəti orqanlarından 32 vətəndaş müraciəti daxil olmuşdur. 2019-cu ildə birbaşa rayon İcra hakimiyyətinə 139 təklif, ərizə və şikayət daxil olmuşdur. Azərbaycan Respublikası Prezident Adminstrasiyasına ünvanlanmış 6 şikayət ərizəsi nəzarətdə olmuşdur.

Ümumilikdə daxil olmuş 413 müraciətdən 49-na və ya 11,9 faizinə nəzarətə alınmaqla baxılmışdır. Müraciətlərdən 236-sı və ya 57,1 faizi ərizə, 172-si və ya 41,7 faizi şikayət, 5-i və ya 1,2 faizi təklif olmuşdur.

Ərizələrin 2-si qəbul , 1-i ictimai -siyasi məsələlər, 1-i dövlət qulluğu və kadr məsələləri, 29-u şəhər, rayon icra hakimiyyətləri və bələdiyyələrin fəaliyyəti, 2-si milli təhlükəsizlik məsələləri və hüquq-mühafizə orqanlarının fəaliyyəti məsələləri ,1-i kənd təsərrüfatı məsələləri, 37-si torpaq məsələləri, 2-si elm və təhsil məsələləri, 5-i səhiyyə məsələləri, 1-i mədəniyyət və turizm məsələləri, 2-si nəqliyyat məsələləri, 5-i müdafiə, Qarabağ münaqişəsi, orduya çağırış, 30-u sosial müdafiə məsələləri ilə bağlı, 2-si enerji daşıyıcıları və su təhcizatı məsələləri, 80-i mənzil məsələləri, 6-sı şəhərsalma və tikinti məsələləri, 12-si təbii fəlakət hadisələri və fövqəladə hallarla bağlı, 5-i məişət məsələləri, 3-ü təltif, təqaüd və fəxri adların verilməsi məsələləri, 2-si müraciətlərə baxılma ilə bağlı məsələlər, 3-ü dövlət quruculuğu və qanunvericilik məsələləri, 1-i sənaye, iqtisadiyyat və sahibkarlığın inkişafı ilə bağlı məsələlər, 4-ü yaşayış məntəqələri və ərazi bölgüsü ilə bağlı olmuşdur.

Bu ərizələrdən 29-u və ya 12,3 faizi müsbət həll edilmiş, 191-nə və ya 81 faizinə müvafiq izahat verilmiş, 17-si və ya 7,2 faizi baxılmaq üçün aidiyyəti üzrə digər orqanlara göndərilmişdir.

Şikayətlərin 2-si qəbul, 2-si ictimai -siyasi məsələlər, 19-u dövlət qulluğu və kadr məsələləri, 10-u şəhər, rayon icra hakimiyyətləri və bələdiyyələrin fəaliyyəti, 2-si milli təhlükəsizlik məsələləri və hüquq-mühafizə oqanlarının fəaliyyəti məsələləri, 4-ü kənd təsərrüfatı məsələləri, 37-si torpaq məsələləri, 2-si elm və təhsil məsələləri, 5-i səhiyyə məsələləri, 2-si nəqliyyat məsələləri, 5-i müdafiə, Qarabağ münaqişəsi, orduya çağırış, 11-i sosial müdafiə məsələləri ilə bağlı, 7-si enerji daşıyıcıları və su təhcizatı məsələləri, 18-i mənzil məsələləri, 8-i şəhərsalma və tikinti məsələləri, 20-si təbii fəlakət hadisələri və fövqəladə hallarla bağlı, 9-u məişət məsələləri, 4-ü müraciətlərə baxılma ilə bağlı məsələlər, 1-i ədliyyə orqanlarının fəaliyyəti, 1-i məhkəmələrin fəaliyyəti, 3-ü yaşayış məntəqələri və ərazi bölgüsü ilə bağlı olmuşdur. Şikayətlərdən 3-ü və ya 1.7 faizi müsbət həll edilmiş, 2-si və ya 1.2 faizi qismən həll olunmuş, 159-na və ya 92.4 faizinə müvafiq izahat verilmiş, 9-u və ya 5,2 faizi əsassız sayılmış, 1-i və ya 0,6 faizi baxılmaq üçün aidiyyəti üzrə digər orqanlara göndərilmişdir.

Təkliflər 1-i kənd təsərrüfatı məsələləri, 2-si mənzil məsələləri,1-i sənaye, 1-i iqtisadiyyat və sahibkarlığın inkişafı ilə bağlı məsələlər, 1-i yaşayış məntəqələri və ərazi bölgüsü ilə bağlı olmuşdur.Təkliflərlə bağlı müvafiq izahatlar verilmişdir.

2019-cu ildə Rayon İcra hakimiyyətinin başçısı tərəfindən 40 rəsmi qəbul keçirilmiş, bu qəbullarda 351 nəfər, yerlərdə keçirilmiş 47 səyyar qəbulda isə 183 nəfər vətəndaş qəbul edilmişdir.

Cənab Prezidentin tapşırığına uyğun olaraq rayonumuzda vətəndaşların qəbulu, onların problemlərinin həllinə diqqət daha da artırılmışdır. Biz həftədə bir dəfə, bir kənddə səyyar qəbul keçirir, əhalinin problemlərini yerindəcə öyrənilərək həlli üçün zəruri tədbirlər görürük. Eyni zamanda, 2019-cu il aprel ayının 25-də və noyabr 14-də Azərbaycan Respublikası Prezidenti Adminstrasiyasının məsul işçiləri tərəfindən rayonumuzda qəbul keçirilmişdir. Eləcə də, rayonumuzda Azərbaycan Respublikası Baş Prokuroru cənab Zakir Qaralov, Əmlak Məsələləri Dövlət Komitəsinin sədri cənab Kərəm Həsənov, Azərbaycan Respublikası Baş Prokurorunun müavini cənab Namiq Əsgərov, Ədliyyə Nazirinin müavini cənab Toğrul Musayev, Vergilər nazirinin müavini cənab Sahib Ələkbərov Energetika Nazirinin müavini cənab Samir Vəliyev, tərəfindən Qobustan şəhərində regional qəbullar keçirilmişdir. Bütün bunlar vətəndaş məmnunluğunun yaranmasına xidmət göstərir.

Ötən il mart ayının 5-dən 19-dək Qəbələ Asan xidməti rayonumuzda səyyar xidmət göstərmişdir. 15 gün ərzində 801 vətəndaş xidmətə müraciət etmiş, 358 nəfərdən sənəd qəbul edilmiş, 194 nəfərə hazır sənəd verilmişdir. 206 nəfərə informasiya xidməti göstərilmişdir. Xidmətə daha çox şəxsiyyət vəsiqələrinin, sürücülük vəsiqələrinin, ümumvətəndaşlıq pasportlarının verilməsi və dəyişdirilməsi, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı, notarial fəaliyyəti və digər xidmətlərlə bağlı olmuşdur.

Vətəndaş müraciətlərinə diqqət bundan sonra da artırılmalıdır. İstər müəssisə və təşkilat rəhbərləri, istərsə də ərazi nümayəndələri vətəndaşlara qayğı ilə yanaşmalı, onların müraciətlərinə vaxtında və düzgün baxılmalı, düzgün istiqamət verilməlidir. Hər bir vətəndaşın müraciətini aidiyyəti təşkilat və ya vəzifəli şəxs səlahiyyəti daxilində olduqda həll etməli, müvafiq izahat verməli, səlahiyyətinə aid olmadıqda isə düzgün istiqamətləndirməlidir.

Son vaxtlar vətəndaşlardan evlərinin qəzalı vəziyyəti barədə çoxsaylı müraciətlər daxil olur. Bununla bağlı ərazi nümayəndələri vətəndaşlara evlərini icbari sığortalamalı olduqlarını, qəzalı vəziyyət yaranarkən isə evlərinin həmin sığorta vəsaiti hesabına təmir edildiyini başa salmalıdır. Artıq əmlakın icbari sığortalanması ilə əlaqədar məsələ nəzarətə götürülmüşdür.

Ötən il rayonda 27 yaşayış evi sığortalandığı halda, bu ilin əvvəlindən 331 yaşayış evi və 4 qeyri-yaşayış binası sığortalanmışdır. Qısa müddətdə bütün yaşayış evlərinin sığortalanması məqsədilə müvafiq tədbirlər görülməlidir.

Qobustan rayonu İcra hakimiyyətinin başçısı aparatında gənc kadrların seçilib yerləşdirilməsinə xüsusi diqqət yetirilir. 2019-cu ilin əvvəlinə İcra hakimiyyətinin başçısı aparatında 4 vakansiya olduğu halda, hazırda 3 vakansiya vardır. Aparatda dövlət qulluqçuları üzrə orta yaş həddi 36,6 yaşdır.

Möhtərəm Prezidentimizin sərəncamı ilə 2019-cu ildə Rayon İcra hakimiyyətinin başçısı Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubiley medalı ilə, Şikarov Aftandil Heybət oğlu "Tərəqqi" medalı ilə, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının rayon təşkilatının sədri Ağayev Abdulhəsən Ağadayı oğlu Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubiley medalı ilə təltif edilmişdir.

2019-cu il rayonumuzda təhsil, səhiyyə, mədəniyyət və idman sahələrində də bir sıra uğurlarla yadda qalmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində son illərdə rayonumuzda 17 yeni məktəb binası tikilmiş, 4 məktəb əsaslı təmir edilmiş, 1 məkəb üçün 10 əlavə sinif otağı inşa edilmişdir. 1 məktəbin tikintisinə başlanmışdır. Məktəblərin maddi-texniki bazası möhkəmləndirilmiş, ən müasir avadanlıq və texniki qurğularla təmin olunmuşdur. Rayon məktəblərinin 70,0 faizi müasir tələblərə tam şəkildə cavab verən, yeni inşa edilmiş və ya əsaslı təmir edilmiş məktəblərdir.

Hazırda qarşımızda duran əsas məsələ Təklə Mirzəbaba, Ərəbşalbaş və Nabur kəndlərində müasir məktəb binalarının tikintisinə nail olmaqdır.

Onu da qeyd edək ki, 2018-ci ildə 328 on birinci sinif məzunundan 168-i (51,2 faiz) elektron ərizə vermiş, 90 şagird (sənəd verənlərin 53,6 faizi, ümumi məzunlar üzrə isə 27,4 faiz) ali məktəbə qəbul olunmuşdur. 2019-cu ildə isə 286 məzundan 154-ü elektron ərizə vermiş(53,8 %) və 111 (sənəd verənlərin 72,1 faizi, ümumi məzunlar üzrə isə 38,8 faiz) nəfər ali məktəbə qəbul olunmuşdur. 2018-ci ildə 9 nəfər 500-dən , 6 nəfər isə 600-dən yuxarı bal toplamışdır. 2019-cu ildə isə 15 nəfər 500-dən, 5 nəfər isə 600-dən artıq bal toplamışlar. Yüksək bal toplayan tələbələrlə İcra hakimiyyəti başçısının görüşü keçirilmiş, onlara hədiyyələr təqdim edilmişdir. Lakin biz təhsilə diqqəti artırmalıyıq.

2019-cu ildə sənəd verən məzunlara nisbətdə ən yüksək qəbul faizi Təklə Mirzəbaba kəndi üzrə 83 faiz, Ərəbşalbaş kənd tam orta məktəbi üzrə 78 faiz, Çuxanlı kənd tam orta məktəbi üzrə 66 faiz, Şəhər 2 saylı tam orta məktəbi üzrə 54 faiz, A.O.Çernyayevski adına şəhər 1 saylı tam orta məktəbi üzrə 51 faiz, Cəmcəmli kənd tam orta məktəbi üzrə 50 faiz olmuşdur.

*(Davamı səh.4-də)*

*(Əvvəli səh.3-də)*

Onu da qeyd edək ki, Təklə Mirzəbaba, Çuxanlı, Cəmcəmli kəndləri üzrə məzunların hamısı ali məktəbə sənəd vermişdir. Ən aşağı göstərici Okean Badayoğlu adına Bədəlli kənd tam orta məktəbində olmuşdur. Burada məktəbi bitirən 7 məzundan yalnız 1-i ali məktəbə sənə vermiş, lakin qəbul olmamışdır.

Rayonumuzda əhalinin sağlamlığının qorunması istiqamətində də tədbirlər davam etdirilir. Ötən il 26453 nəfər tibbi müayinəyə cəlb edilmişdir. Onlardan 2342-si ambulator müalicəyə cəlb edilmiş, 520-si isə ixtisaslaşdırılmış tibb müəssisələrinə göndərilmişdir. Bu tibbi müayinənin keçirilməsi də bildiyiniz kimi cənab Prezidentin təşəbbüsüdür. Hər bir sakinin ildə bir dəfə pulsuz tibbi müayinədən keçirilməsi çox mühüm əhəmiyyətə malikdir. Yeni xəstəxanamızın istifadəyə verilməsi nəticəsində tibbi müayinə bu il daha yüksək səviyyədə həyata keçiriləcəkdir. Burada xidmət daim nəzarətdə saxlanılmalıdır. Onu da qeyd edək ki, artıq rayonumuzda da tibbi sığortaya başlanılmışdır. Bu yeni sistem əhaliyə daha böyük imkanlar yaradacaqdır ki, onlar bu xidmətdən yararlansınlar.



Burada Dövlətimiz tərəfindən çox böyük addım atılmışdır. Hər bir insan üçün 90 manat tibbi sığorta haqqının köçürülməsi, eyni zamanda əlillərin, şəhid ailələrinin, aztəminatlı ailələrin tibbi sığorta xərclərini tamamilə öz üzərinə götürməsi böyük maliyyə vəsaiti tələb edir. Bu Azərbaycan Respublikası Prezidentinin siyasətinin ən prioritet istiqamətinin vətəndaşların sosial rifah halının yüksəlməsi, sağlamlığının qorunması olduğunun bariz nümunəsidir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, Qafqaz Müsəlmanları İdarəsinin bölgə üzrə nümayəndələri, Hüquq mühafizə orqanları və Gənclər və İdman İdarəsi ilə birlikdə bütün təhsil müəssisələrində qeyri-ənənəvi radikal dini cərəyanlara qarşı "Dini radikalizm və onun fəsadları", "Dini radikalizmlə mübarizədə gənclərin yolu", "Vətən sevgisi-Şəhidlik zirvəsi", "Tolerantlıq müasirlikdir", "Milli-mənəvi dəyərlərimiz və müasirlik və s. mövzularda maarifləndirici tədbirlər keçirilmişdir.

Dini icmaların qeydiyyata alınması istiqamətində işlər sürətləndirilmişdir. 2017-ci ilədək 21 məscidin 7-sinin dini icması qeydiyyata alındığı halda, 2019-cu ildə 15-ə çatdırılmışdır. 4 məscidin dini icmasının sənədləri hazırlanaraq aidiyyəti. üzrə təqdim edilmişdir.

Bilik müsabiqələrində, idman səhnələrində gənclərin qazandığı nailiyyətləri nəzərə alaraq demək olar ki, 2019-cu il Qobustan rayonu üçün gənclər sahəsində də uğurlu il hesab oluna bilər.

Qobustan İdman Kompleksinin istifadəyə verilməsi, İdman məktəbinin maddi-texniki bazasının gücləndirilməsi, yeni tikilən çoxsaylı məktəblərdə idmana yaradılan şərait, qurulan infrastruktur, yeni idman bölmələrinin fəaliyyətə başlaması yeniyetmə və gənclər arasında idmanın kütləviliyinə nail olunmasına şərait yaratmışdır.

2019-cu ildə gənclər siyasəti və idman sahələrinin prioritet istiqamətləri, gənc nəslin vətənpərvərlik, dövlətçilik, azərbaycançılıq və milli-mənəvi dəyərlərə hörmət ruhunda formalaşması, intellektual səviyyəsinin yüksəldilməsi, əhali arasında idmanın kütləviliyinə nail olunmasına xüsusi diqqət ayrılmış və bu sahələr üzrə keçirilmiş 125 seminar, müşavirə, aksiya, müsabiqə, toplantı, görüş, dəyirmi masa, və idman yarışlarında 5000-dən çox yeniyetmə və gənc iştirak etmişdir. Bilik müsabiqələrində, idman səhnələrində gənclərin qazandığı nailiyyətləri nəzərə alaraq demək olar ki, 2019-cu il Qobustan rayonu üçün gənclər sahəsində də uğurlu il hesab oluna bilər.

Hesabat dövründə əlaqədar təşkilatlarla birlikdə gənclərimizin hərbi xidmətə yolasalma mərasimləri və gənclərin vətənpərvərlik tərbiyəsində müstəsna əhəmiyyəti olan "Şahin" hərbi - idman oyunu üzrə orta məktəb şagirdləri arasında rayon birinciliyi keçirilmişdir. R.Babaşov adına Cəmcəmli kənd tam orta məktəbin komandası "Şahin" hərbi - idman oyunu üzrə rayon birincisi olmuş və oyunların Göyçay şəhərində keçirilmiş zona birincilyində 11 komanda arasında V yeri tutmuşdur.

2 Fevral - Gənclər günü və 5 Mart - Bədən tərbiyəsi və İdman günü münasibəti ilə rayon gənclərinin və idmançılarının bayram şənlikləri və mükafatlandırma mərasimləri keçirilmiş, il ərzində ayrı-ayrı sahələr üzrə fərqlənmiş gənclər və idmançılar fəxri diplom və qiymətli hədiyyələrlə mükafatlandırılmış, beynəlxalq yarışlarda qalib gəlmiş idmançıların gənclərlə görüşləri təşkil olunmuşdur.

20 Yanvar - Milli Hüzn günü münasibətilə "Müstəqilliyimiz əbədidir", Xocalı faciəsinin 27-ci ildönümü münasibəti ilə "Xocalı faciəsi - qan yaddaşımız", 31 Mart - Dünya Azərbaycanlılarının Soyqırımı günüdür" mövzularında dəyirmi masalar keçirilmiş, "20 Yanvar", Xocalı və Mart Soyqırımı həqiqətləri gənclərə çatdırılmışdır.

Gənclər arasında sağlam həyat tərzinin təbliği və zərərli vərdişlərə, xüsusilə narkomaniyaya qarşı mübarizə ilə bağlı Qobustan şəhər 1, 2 və 3 saylı tam orta məktəblərində və Gənclər Mərkəzində maarifləndirici tədbirlər keçirilmişdir.

Ötən ilin sonunda keçirilən Bələdiyyə seçkiləri ilə əlaqədar Sündü, Cəyirli və Ərəbşalbaş kəndlərində "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının 5.7.3 yarımbəndinin (Gənclər arasında seçki prosesinin və seçkilərdə (referendumda) iştirakın təbliği, ilk dəfə səs verən seçicilər arasında maarifləndirmə işinin təşkili) icrasını təmin etmək məqsədi ilə gənclər, xüsusilə ilk dəfə səs verən gənclərin seçki qaydaları ilə bağlı maarifləndirilməsi ilə bağlı seminarlar keçirilmişdir.

Yeniyetmə və gənclərin intellektual səviyyəsinin yüksəldilməsi məqsədilə "Xəmsə" Milli İntellektual Oyunu üzrə Gənclər arasında XI Azərbaycan Çempionatının, Yeniyetmələr arasında VII Azərbaycan Çempionatının rayon mərhələləri keçirilmiş, qalib komandaların zona mərhələsində iştirakı təmin olunmuşdur. Yeniyetmələrdən ibarət "Ulu Qobustan" komandası Şirvan zona birinciliyində I yerə çıxaraq, Oyunların Bakı şəhərində keçirilən final mərhələsində də iştirak etmişdir.

Gənclərin internet, kompüter texnologiyaları sahəsində biliklərini artırmaq məqsədilə cari ilin may ayında gənclər arasında Kompüter Oyunları üzrə XIII Azərbaycan Çempionatının rayon mərhələsi keçirilmiş, qalib komandanın Göyçay şəhərində keçirilmiş zona birinciliyində iştirakı təmin olunmuşdur. Kiber idmançılar 4 nominasiya üzrə yarışmış və 1 "gümüş" və 1 "bürünc" medal qazanmışlar.

Hazırda rayonda bədən tərbiyəsi və idmanla 7500 gənc mütəmadi məşğul olur. İdman bölmələrinin avadanlıq və inventarla təmin olunması daim diqqət mərkəzindədir. Cari il ərzində mövcud idman zalları təmir olunmuş və zəruri idman avadanlıqları ilə təmin edilmişdir.

2019-cu il ərzində idmanın sərbəst güləş, ağır atletika, şahmat, armrestlinq, poverliftinq və VMH çoxnövçülüyü üzrə yarışlar, cüdo üzrə zona və respublika turniri keçirilmişdir. Bundan əlavə respublika və beynəlxalq yarışlarda iştirak edən idmançılarımız uğurlu nəticələr əldə etmişlər.

Sumqayıt şəhərində ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş cüdo üzrə beynəlxalq turnirdə Qobustan rayon Uşaq-Gənclər İdman məktəbinin yetirməsi Babarəhim Mirzəyev II yerə çıxmışdır.

Enşin karate Klub İB-nın uşaqlar, yeniyetmələr, gənclər və böyüklər arasında beynəlxalq turnirdə gənc məşqçi, karate üzrə 3 qat Dünya Çempionu İbad Rzazadənin yetirmələrindən Dəmirov Ömər, Məmmədli Muhamməd və Əsgərov Mehrab I, Əkbərli Rəvan, Məmmədli Hüseyn və Mustafazadə Kamil II, Güləliyev Elman və Mikayılov İsmayıl isə III yerə sahib çıxmışlar.

Babarəhim Mirzəyev və Samir Qayıblı İran İslam Respublikasının Astara şəhərində aşağı yaşlı oğlanlar və yeniyetmələr arasında cüdo üzrə keçirilən beynəlxalq turnirdə I yerə çıxmışlar.

Qocyu-ryu Okinava karate-do və Kobudo-kempo üzrə yeniyetmə, gənclər və böyüklər arasında açıq Avropa çempionatı və birinciliyində iştirak edən idmançılarımızdan Mehrab Əsgərov, Seyidli Mətləb və İsmayılov Cavidan bütün rəqiblərinə qalib gələrək I yeri tutmuşlar.

İsrailin Eylat şəhərində keçirilən ağır atletika üzrə yeniyetmələr arasında Avropa birinciliyində iştirak edən atletlərimizdən Tehran Məmmədov və Həsənağa Sahibov mükafata layiq yerlərə çıxa bilməsələr də, idman ustası normativini ödəmişlər.

İlin sonunda döyüş növləri üzrə "Prezident Kuboku" turnirində iştirak edən Mehrab Əsgərov bütün görüşlərdə qalib gələrək I yeri tutmuşdur.

İdmançılarımız respublika miqyaslı yarışlarda da yüksək nəticələr əldə etmişlər.

Ağır atletika üzrə kişilər və qadınlar arasında Azərbaycan Çempionatında iştirak edən atletlərimizdən Tehran Məmmədov və İsmayıl Qurbanov I yeri tutaraq Çempion adını qazanmışlar.

Uşu sanda üzrə respublika çempionatında ilk dəfə iştirak etməsinə baxmayaraq, idmançılarımızdan Mehrab Əsgərov I yeri, Elgün Dəmirov isə III yeri tutmuşdur.

Gənclər və İdman İdarəsinin və Azərbaycan Cüdo Federasiyasının birgə təşkilatçılığı ilə 28 May - Respublika günü münasibətilə 2003-2005 və 2006-2008-ci il təvəllüdlü yeniyetmələr arasında IV Respublika turniri keçirilmişdir. Turnirdə respublikamızın bütün bölgələrindən 450-dən artıq idmançı iştirak etmişdir. Qobustan cüdoçuları 1 "qızıl", 5 "gümüş" və 3 "bürünc" medal qazanaraq, komanda hesabında III yeri tutmuşlar.

15 İyun - Milli Qurtuluş gününə həsr olunmuş kempo üzrə XXII Respublika açıq turnirində iştirak edən gənc karate ustaları isə 11 "qızıl", 3 "gümüş" və 3 "bürünc" medal qazanmaqla, komanda hesabında I yerə çıxmışlar.

Şəki şəhərində keçirilmiş Sindo-ryu və Pençak silat idman növü üzrə Azərbaycan birinciliyi və çempionatında iştirak edən idmançılardan Səid Balaqardaşov və Murad Abdullayev Çempion adını qazanmışlar.

Mehrab Əsgərov, Surac Əhmədov, Ömər Yaqubov, Hüseyn və Muhəmməd Məmmədli qardaşları Qocyu-ryu okinava karate-do kobudo -kempo üzrə uşaq və yeniyetmələr arasında Ağdam Şəhidlərinin xatirəsinə həsr olunmuş respublika turnirində I yerə çıxmışlar.

Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş uşaqlar, yeniyetmələr, gənclər və böyüklər arasında Qocyu-ryu okinava karate-do kobudo -kempo üzrə IV Respublika turnirində idmançılar 33 müxtəlif əyarlı medal qazanmaqla komanda hesabında I yeri tutmuşlar.

Ümumilikdə, 2019-cu il ərzində gənclər siyasəti sahəsində 21, idman sahəsi üzrə 14 tədbir həyata keçirilmiş və 3800-ə yaxın yeniyetmə və gənc bu tədbirlərdə iştirak etmişdir. Qobustan rayon gəncləri dövlət gənclər siyasəti sahəsində 11 respublika tədbirində iştirak etmişlər. Bundan əlavə rayon idmançılarının 11 beynəlxalq, 36 respublika və 30 zona yarışlarında iştirakı təmin olunmuşdur. Bu yarışlarda 832 nəfər idmançı iştirak etmiş, 126 qızıl, 58 gümüş və 76 bürünc olmaqla, 260 medal qazanılmışdır.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2020-ci il "Könüllülər ili" elan edilmişdir. Bununla bağlı tərəfimizdən Tədbirlər planı hazırlanaraq təsdiq edilmiş və icrasına başlanmışdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "Asan Könüllülər" şəbəkəsinin imkanlarından istifadə edərək gənclərin İcra hakimiyyətində təcrübəyə cəlb edilməsi, onlarla sistemli işin təşkili məqsədilə tərəfimizdən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə əlaqə saxlanılmış, rayon gəncləri arasında könüllülük fəaliyyətinin daha geniş təşviq edilməsi məqsədilə Qobustan rayonu İcra hakimiyyəti başçısının 28 mart 2019-cu il tarixli 023 nömrəli sərəncamı verilmişdir. Sərəncama əsasən İcra hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Səfər Babaş oğlu İbrahim könüllülərlə iş üzrə koordinator təyin edilmiş, başçının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Təranə Ağababa qızı Güləliyevaya könüllülük fəaliyyətinin həyata keçirilməsinə cəlb edilmiş şəxslərlə müqavilə bağlamaq səlahiyyəti verilmişdir.



Qobustan rayon İcra Hakimiyyətində 15 aprel - 15 iyun 2019-cu il tarixlərində 5 nəfər, 01iyul - 01 sentyabr 2019-cu il tarixlərində 4 nəfər, 01 noyabr 2019-cu il - 01 yanvar 2020-ci il tarixlərində 4 nəfər olmaqla, ümumilikdə 13 nəfər könüllü fəaliyyətinə cəlb edilib.Onlardan 5-i qadın,8-i kişidir. Qeyd olunan könüllülər üzərlərinə düşən öhdəliklərin yerinə yetirilməsində və rayonun ictimai-siyasi tədbirlərində fəallıq nümayiş etdiriblər.Könüllülük fəaliyyətlərini başa vurduqdan sonra hər birinə sertifikatlar təqdim edilmişdir. Yeni könüllülərin seçilməsi və fəaliyyətə başlamaları üçün müvafiq tədbirlər görülür.

İcra hakimiyyətinin internet səhifəsində "Könüllü fəaliyyət" əsas bölmə olmaqla alt bölmə hazırlanmış, müvafiq elan və anket forması, digər məlumatlar bölmədə yerləşdirilmişdir. Könüllülük fəaliyyətinin təşkili üzrə tədbirlər tərəfimizdən davam etdirilir. Biz çalışmalıyıq ki, rayonumuzda könüllülük fəaliyyəti geniş vüsət alsın.

Möhtərəm Prezidentimizin rayonumuza göstərdiyi diqqət və qayğı, qəbul edilmiş Dövlət proqramları, başlanmış işlər Respublikamız və rayonumuz üçün 2020-ci ilin daha uğurlu bir inkişaf ili olacağını deməyə əsas verir.

2020-ci ildə də biz qobustanlılar cənab Prezidentin ətrafında daha sıx birləşərək verdiyi tapşırıq və tövsiyələri vaxtında və tam şəkildə yerinə yetirmək üçün bütün qüvvə, bilik və bacarığımızı səfərbər edəcəyik.

*Təsisçi:* Qobustan Rayon İcra Hakimiyyəti

*Baş redaktor:*
Ruslan Şahbazov
Tel.: (050) 524 28 10
(070) 224 28 10

*Ünvan:*
Qobustan şəhəri, Heydər Əliyev prospekti. Qobustan Rayon İcra Hakimiyyətinin binası.
Qəzet ayda iki dəfə çıxır

Qəzet "Red on line" mətbəəsində çap olunmuşdur
Tiraj: 2000
E_mail:qobustanqazeti@mail.ru